# Enerji auditoru
## ixtisas attestatını əldə et!

### Enerji auditinin məqsədi:

Enerji effektivliyinin artırılması və enerjiyə qənaət imkanlarını, enerji itkilərinin və ətraf mühitə atılan tullantıların miqdarını və həyata keçiriləcək iqtisadi cəhətdən səmərəli enerji effektivliyi tədbirlərini müəyyənləşdirməkdir.



AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

## İxtisas attestatı əldə etmək üçün tələblər:

- Energetika və ya iqtisadi sahələrdə **ali təhsil**
- Müvafiq ixtisas üzrə ən azı **3 il** iş təcrübəsi

*Energetika və iqtisadi sahələrdə cinayət törətməyə görə məhkum edilmiş şəxslər enerji auditoru kimi **fəaliyyət göstərə bilməzlər.***



## Diqqət!

*"Fiziki şəxsə ixtisas attestatının verilməsi üçün onun işlədiyi hüquqi şəxs **(enerji auditi üzrə təşkilat)** bu barədə **Energetika Nazirliyinə** müraciət edir."*

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

Enerji auditorları aşağıda qeyd olunan kateqoriyalardan **biri** və ya **ikisi üzrə ixtisas attestatı** almaq hüququna malikdir:

- **Təsərrüfat subyektlərində** enerji auditinin keçirilməsi üzrə
- **Binalarda** (qurğularda) enerji auditinin keçirilməsi üzrə

Attestasiya **test üsulu ilə** Energetika Nazirliyi tərəfindən həyata keçirilir.

Testin müddəti **2 saatdır** və **fasilə verilmədən** keçirilir.

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

## Testin keçirilməsi qaydası:

Test zamanı **40 qapalı tipli** və **10 açıq tipli** olmaqla, **50 test tapşırığı** təqdim edilir.

Test tapşırıqları üzrə **qapalı tipli suallar** üzrə hər düz cavab **1 balla**, **açıq tipli suallar** üzrə hər düz cavab **2 balla**, düzgün olmayan cavab və ya cavabsız saxlanma **0 balla** qiymətləndirilir.

Test nəticəsində **ən azı 45 bal toplamış** namizədlər **attestasiyadan keçmiş** hesab olunurlar.



Müraciət üçün

(+99412) 598-16-53/54/55

minenergy@minenergy.gov.az

www.minenergy.gov.az

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ